Sentyabrın 24-də Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihə üçün 25 milyon ABŞ dolları dəyərində Azərbaycan Hökuməti və Dünya Bankı arasında Beynəlxalq İnkişaf Assosiasiyasının güzəştli krediti üzrə Maliyyələşdirmə Sazişinin imzalanma mərasimi keçirilib.

Sazişi təhsil naziri Misir Mərdanov və Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Qreqori Yedjeyçak imzalayıb.

Bu layihə çox mərhələli proqramın ikinci mərhələsidir. Başa çatmaqda olan birinci mərhələ ibtidai və orta siniflər üçün yeni kurrikulumun hazırlanması, dərslik materiallarının, şagird nailiyyətlərinin yeni qiymətləndirmə metodlarının və müəllimlərin təlimi proqramlarının tərtibi yolu ilə Azərbaycanın təhsil sistemində islahatları dəstəkləyib.

Proqramın ikinci mərhələsində birinci mərhələ ərzində hazırlanmış kurrikulumun, əlaqəli proqram və sistemlərin praktik tətbiqinə yardım göstəriləcək. Məqsəd təhsil sisteminin keyfiyyət və səmərəliliyinin yüksəldilməsindən ibarətdir.

Layihəyə kurrikulum islahatının həyata keçirilməsi, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair məlumatların keyfiyyətin yüksəldilməsində istifadəsi, təhsili idarəetmə orqanlarının idarəetmə imkanlarının gücləndirilməsi və məktəbəqədər təhsilin inkişafı kimi komponentlər daxildir. Altıncı komponent layihənin monitorinq və qiymətləndirilməsidir ki, burada məqsəd layihə ilə bağlı fəaliyyətin həyata keçirilməsi, idarə edilməsi və əlaqələndirilməsinə yardım göstərməkdir.